ALMARA VƏZİR QIZI NƏBİYEVA
*Bakı Dövlət Universiteti*

# QARABAĞ AŞIQ MÜHİTİ NÜMAYƏNDƏLƏRİNİN MƏHƏBBƏT LİRİKASI

Tarixin meydanında ozan sənətini əvəzləyən asıq sənəti öz sələfindən repertuarı ılə fərqlənirdi. Professor A. Nəbiyevin yazdığı kimi, "Yeni peşəkar improvizatorçu olan aşıqlar öz repertuarına ayrı-ayrı oğuz bəylərinin, cəngavər və şöhrətli döyüşçülərin qəhrəmanlığını deyil, elin igid oğul və qızlarının sevgi - məhəbbət duyğularının bütöv mənzərəsini gətirdilər" (12,s.20). Başqa sözlə desək, məhəbbət lirikası aşıq yaradıcılığının ilkin, əsas və əbədi mövzusudur. "Qarabağ aşıq mühitinin el sənətkarlarının yaradıcılığında da məhəbbət lirikası, gözəlliyin tərənnümü də xüsusi yer tutur. İstər aşıqların, istərsə də el şairlərinin yaradıcılığında bu mövzunun işlənməsi orijinallığı ilə diqqəti cəlb edir. Tariyel Abbasov yazır: "Məhəbbət ədəbiyyatın əzəli və əbədi mövzusu kimi bütün ustad-dədə aşıqların, şairlərin yaradıcılığında özünə möhkəm yer tutur" (1,s.68). Ustad Aşıq Xaspoladın "Gəlir", "Keçdi", "Əzizim" kimi qoşmaları istər mükəmməlliyinə, istərsə də sadəlik və təbiiliyinə görə seçilən şeirlərdir. Özünü "təbibsiz xəstə" adlandıran aşıq taqətinin tükənib, nəfəsdən düşdüyünü sevgilisinə bildirərək, onun dərdinə əlac etməsini istəyir. O yazır:

Bülbül tək qonardım bağı-gülşənə,
Həmdəm olub çəkilərdim pünhana.
İtirdim yarımı, düşdüm zindana,
Ələndi başıma kül, əlac eylə.

Şərbətim zəhərdir, ağı çağlıdı,
Kəsilib bərabər, yolum bağlıdı.
Məhəbbət əhliyəm, qəlbim dağlıdı,
Quruyub ağzımda dil, əlac eylə. (2,s.45-46).

Ustad aşığın "Gəlir" adlı qoşması daha çox yadda qalan ifadə vasitələri, müqayisələrlə adamda xoş təəssürat oyadır:

Ovçuluq bilməyən keşdə çıxmasın,
Hürküdüb ovları, daldan baxmasın.
Tərlanın yerini sarlar tutmasın,
Səyyadlar ovlağa ceyrana gəlir.

Sevgi tarixini salsalar yada,
Neçələri nakam qalıb dünyada.
Milçəklər qovrulub yanmasın oda,
Şama dolanmağa pərvanə gəlir (2,s.46-47).

Şeirdə ana qarğa ilə bülbül, tərlanlarla sar, milçəklə pərvanə müqayisə edilir. Daha doğrusu, yaxşı-yaman göstərilir. Çünki bunların hər birinin özünəməxsus xüsusiyyətləri var. Milçək şama dolana bilməz, ana qarğa bülbül olmaz, sar da tərlan. Başqa sözlə, haqqın nizamına uyğun olaraq, səyyadlar ovlağa ceyrana, pərvanə şama dolanmağa gəlir.

Aşıq Xaspoladın yeddi bəndlik "Getdi" adlı qoşması da çox təsirlidir. El sənətkarı burada sevgilisi ilə rastlaşmasından söz açır: o salam versə də, sevgilisi dillənmir, amma onun qəmli baxışları, hərdən bir köks ötürməsi aşığın dərdini daha da artırır:

Çevrildi həyatım, çovğun - qar oldu,
Ağzımın ləzzəti zəhrimar oldu.
Məhəbbət otağım tarımar oldu,
Könlümün evini hörmədi, getdi (3,s.47).

Zülfüqar Tərtərlinin də yaradıcılığında gözəllərin vəsfi az yer tutmur. Onun məhəbbət motivli qoşmalarının həm poetikliyi, həm də bədii təsir gücü yüksəkdir (16). El şairinin "Dedin, dedim", "Belə mən", "Düşdü", "Yandırır", "Gözün", "Ay məndən bixəbər", "Qurban olum", "Ay pəri", "Deyil" kimi qoşmaları bu qəbildəndir. Onun "Gözün" adlı qoşması xüsusi kövrək bir ovqat üstündə deyilmişdir:

Kərəm elə, atəşində yanana,
Onda nə güc qalıb, nə də tavana.
Bir baxışla baxsan hansı cavana,
Eyləyər könlünü viranə gözün (16,s.63).

Zülfüqar Tərtərlinin üç bəndlik "Getdi" qoşması isə istər axıcılığına, istərsə də bədii təsir gücünə görə müasir aşıq şerimizin ən yaxşı örnəklərindəndir. Şair yazır:

Bir mələk simalı, dodağı ballı
Şahmar tək ovsuna yatmadı, getdi.
Sinəmi oxuna çox etdi hədəf,
Aldı nişanəyə atmadı, getdi.

Əritdi sinəmi şirin dilləri,
Qanatdı yaramı eşqin milləri.
Gözüm yaşı al-qan etdi gölləri
Onu bir ümmana qatmadı, getdi.

Unudub əqlimi uydum şeytana,
Gəzdim arxasınca dəli-divana.
Zülfüqaram, çox əl atdım hər yana
Əlim heç bir yana yetmədi, getdi (16,s.46).

Müəllif "bir mələk simalı, dodağı ballı"nın nə üçün "şahmar" kimi "ovsuna yatmayıb" getdiyini birinci bəndin dördüncü misrasında açıqca verir, "aldı nişanəyə atmadı getdi", yəni «baxışından atəş yağan bu gözəl ona könül verməyib getdi» deyir. Elə buna görə də onun "şirin dilləri yarasını qanadır." O, "gözüm yaşı al-qan etdi gölləri" deməklə maraqlı bir mübaliğədən istifadə etmişdir.

Qoca şairin "Ay İsmi Pünhan" qoşması da təbiiliyi və axıcılığı ilə seçilən bədii nümunələrdəndir:

Mən nökərəm, sən xanımlar xanımı,
Yandır atəşinlə, yandır canımı.
Vüsala yetirsən bu hicranımı,
Canım olsun behin, ay İsmi Pünhan.

Cavan oldum, öz əqlimi çaşdırdım,
Göz yaşımnan dəryaları doldurdum.
Neçə münəccimə kitab açdırdım,
Əsmədi dost mehi, ay İsmi Pünhan (16,s.55).

Zülfüqar Tərtərli bu qoşmasında da orijinal bir mübaliğə ("göz yaşımla dəryaları doldurdum") yaratmışdır. Şairin İsmi Pünhan dediyi məşuqəsi Molla Cumanın İsmi Pünhanına çox oxşayır. Qoca şair onu şeirlərində tez-tez xatırlayır, ona məftun olduğunu sevgılisinə canı-dildən bəyan edir:

Xudam sənə verib Leyli sifətin,
İşimi eləyib Məcnundan çətin.
Sərrafam, sən kimi təlin qiymətin,
Nə təhər bilməyim, ay İsmi Pünhan.

Zülfüqaram, necə dozüm bu dərdə,
Qocalıq görünür saqqalda, sərdə.
Mənim yurdum Tərtər, səninki Bərdə,
Nə təhər gəlməyim, ay İsmi Pünhan (16,s.40).

Müəllif bu şeirdə də bir bənzətmə (özünü sərrafa, İsmi Pünhanı lələ bənzətmişdir) işlətmişdir. Bu şeirin gözəlliyini daha da artırmışdır. Hazırda Qarabağ aşıq mühitinin şöhrətli el şairləri arasında ən yaşlısı, həm də ən güclüsü Zülfüqar Tərtərlidir (16).

Məhəbbət lirikası Çingiz Laçınlının da yaradıcılığında geniş yer tutur. El şairinin "Gözəlin", "Gətirdi", "Gül görüşü", "De", "Eylərəm", "Tanı", "Mənim yarım alagözdü", "Niyə küsüb" gəraylıları bu mövzuda yazılmış şeirlərdəndir. "Sənsən", "Gülüm", "Səni", "Eyləmişəm", "Dönmədi", "Könlümün" kimi qoşmaları da bu qəbildəndir. Çingiz Laçınlı gəraylılarının

birində qasidə tapşırır ki, məşuqəyə nadan sözünə uymamağı çatdırsın, əhd-ilqarının pozulmaz olduğunu sevgilisinə yetirsin. O, yazır:

Uymasın nadan sözünə,
Qurban piyalə gözünə.
Çatdır o yarın özünə,
Əhd-peymandan bir xəbər de.

Niyə küskün düşüb bizdən,
Aşiqi salmasın gözdən.
Bu tənha, məlul Çingizdən,
Qəlbizardan bir xəbər de (9,s.20).

Şairin başqa bir gəraylısı ilə xeyli səsləşsə də, bu poetik parça daha axıcı və gözəldir. Buradakı bədii suallar şerin bədiiliyini daha da artırır:

Ay ariflər bilən varmı,
Sona göldən niyə küsüb?

Şair sevdiyini sonaya, özünü gölə oxşadır. Çingiz Laçınlı bu gəraylıda bir neçə maraqlı və yadda qalan bənzətmələr yaradaraq böyük poetik ustalıq göstərmişdir.

Aşıq Həmid Miskinin bir qoşması da çox təbii və bir xoş ovqat üstündə yaranmışdır. Gözəli "can alan" kimi təsvir edən müəllif göstərir ki, o, rübəndini üzündən atıb, camalını göstərdiyindən aşığın cismini oda salmışdır. Başına güllü şal örtən bu gözəl qıyqacı baxıb, qəmzələrini eşqə müştaq aşiqin canına saldığından, o da gördüklərini belə dilə gətirir:

Bir can alan qəfil çıxdı qarşıma,
Ağlımı başımdan aldı, qayıtdı.
Atdı rübəndini, göstərdi yanaq,
Cismimi odlara saldı, qayıtdı.

Qiyqac baxıb, can cəsəddən alanda,
Qoşa çiynə güllü şalı salanda,

Qəmzələri bu canıma salanda,
Şahmar tək sinəmi çaldı, qayıtdı.

Anladı fikrimi gecələr xası,
Qaynadı başımda eşqin havası,
Eyhamla söylədi sonra, "qadası",
Qəvvasdı, dəryaya daldı, qayıtdı.

Həmid Miskin, çox cəfa çək bu yolda,
Şanələr dolaşsın əbrüşüm teldə,
Sədaqət ürəkdə, ilqarı dildə,
Dərd-sərindən halı oldu, qayıtdı (14).

Demək olar ki, əsərdəki xoş əhval-ruhiyyə adamda yaxşı təəssürat oyadır. Ustad aşıq burada müxtəlif işarə və ifadələrlə öz eşq macərasını təsvir etsə də, əslində aşiq olduğunu, gözəlin də ona biganə olmadığını, onun üzünü açıb camalını göstərməsi ilə təsəlli tapır. Müəllif vurulduğu gözəlin dərd qanan olduğunu xüsusi vurğulayır, çünki sevdiyi gözəl aşığın dərdini dərhal baxışlarından, hərəkətlərindən anlayan, üstəlik, "eyhamla" danışan, "qəvvas kimi dəryalara dalandır. Bir sözlə, aşıq bütün dediklərını möhürbənddə ümumiləşdirir: "Sədaqəti ürəkdə, ilqarı dildə" olan gözəl onun dərdindən hali olur. Aşıq Həmid Miskin ·bu şeirini bir qızın gözəlliyindən təsirlənərək qoşmuşdur.

Aşıq Umbayın yaradıcılığında da məhəbbət lirikası özünəməxsus yer tutur. Onun "Gülüm", "Keçərəm" qoşmaları yadda qalan, könül oxşayan aşıq şeirləridir. "Gülüm" qoşmasında sevdiyini Əsli adlandıran müəllif özünü gədikləri aşan Kərəmə bənzədir. "Sən də mənim kimi bu sevdaya yan" deməklə ona cəsarətli olmağı xatırladır, çünki sevgili "kövrəlib doluxsunur" və s. Müəllif möhürbənddə sevgilisinin onun haqqında bədgüman olduğunu diqqətə çatdırır, ona "dürr seçib sərraf olanın" (sevgilisini nəzərdə tutur) "gövhərə çay daşı qatma"dığını anladır". O yazır:

Çıxsın aramızdan qara yamanlar,
Umbayı gizlincə çalan ilanlar.

Sənin tək dürr seçib sərraf olanlar
Gövhərə çay daşı qatarmı, gülüm? (4,s.36).

Adil Cəfakeşin də "Səndən ötəri", "Gözlərim" qoşmaları məhəbbət motivində yazan bədii nümunələrdəndir. Təbii ki, el sənətkarlarının yaradıcılığında qoşmaların üstünlük təşkil etməsi təsadüfi hadisə deyil. Proffesor Abbas Hacıyev yazır: "Müasir qoşma işləkliyini, məişətə yeritmək, təsir oyatmaq imkanını artırır. Bu janrla ictimai-siyasi həyat təhlil edilir, təbiət və məhəbbət lirikasının yaxşı nümunələri yaradılır" (9,s.283). Kədər notları üstündə yaradılmış "Səndən ötəri" qoşması olduqca səmimi və sadə bir dildə verildiyindən adamın könlünə yatır:

Qəm çəkirəm, qəlbim qəmdən yüklənib,
Dirənmişəm, sevda yolum diklənib.
Zalım qızı, bostan kimi ləklənib,
Alnımın qırışı səndən ötəri.

Hicran məni saqqız kimi çeynəyir,
Nakam bir bəndəni həyat neyləyir.
Mən Adiləm, göyüm-göyüm göynəyir
Ürəyimin başı səndən ötəri (7,s.12).

Bədii nümunələrdə aşiqin nakam məhəbbəti səmimi və inandırıcı verilmişdir. Müəllifin "alnımın qırışı bostan kimi ləklənib", "hicranın saqqız kimi aşiqi çeynəyir" kimi sözləri, zənnimizcə, fikrin ifadə tərzini daha da qüvvətləndirmişdir.

Adil Cəfakeş məhəbbət mövzusunda yazdığı "Gözlərin" qoşmasında isə xumar baxmağın mənasını şairanə bir dillə təsvir etmişdir:

Tamaşa elədim doyunca, gəl, gəl,
Bilməm sənə qoşma yazım, ya qəzəl.
Xumar baxmaq ilə bilirəm, gözəl,
Adildən bir tərif umar gözlərin (8,s.27).

Osman Alıyevin lirik düşüncələri orijinallığı və təbii meylliyi ilə adamı valeh edir. Şair, sevginin odlu nəşəsinin qəlbini bürüdüyünü deyərək ayları

insafsız, illəri naşükür adlandırır, çünki elə o anlarla qalmaq istəyir. Axı intizar vüsal günündə əriyir, həm də həsrət sevincin önündə boyun bükməli olur:

İntizar əriyir vüsal günündə,
Göz-gözü görəmməz sevgi çənində,
Həsrət boyun büküb sevinc önündə,
Küsən uşaq kimi kiriyib gedir.

Lal olur məhəbbət, sevgi lal olur,
Ürəyin başında dünya xal olur,
Vüsal dodaqlarda şirin bal olur,
Hicranın acısı əriyib gedir (5,s.18).

Aşıq Məhəmməd Kolanlının "Qoy gedim" adlı gəraylısı da müasir aşıq şerimizin gözəl nümunələrindəndir. Aşıq bu gəraylıda ona buta verildiyini söyləməklə klassik irsimizdən gələn adət-ənənələrimizi (yuxuda badə içib haqq yoluna gəlməyi və b.) yerli-yerində işlətməklə bərabər, qəmli və kövrək ovqatını büruzə verir:

Ağam mənə buta verib,
Qoy gedim, Qənbər, qoy gedim.
Cavanlar minnətə gəlib,
Qoy gedim, Qənbər, qoy gedim.

Badə içmişəm yuxuda,
Ağam indi yetər dada,
Arzularım getməz bada,
Qoy gedim, Qənbər, qoy gedim.

Zimistan eyləmə yazı,
Dinlə sözü, dinlə sazı.
Ağlar qoyma Şahandazı,
Qoy gedim, Qənbər, qoy gedim.
Yetişər dadıma Əli,

Haqq yolunda dedim bəli.
Çağırram imdada gəli,
Qoy gedim, Qənbər, qoy gedim.

Namərd ki, mərdi əyliyər,
Hərcayı sözü söyləyər.
Məhəmməd iltimas eylər,
Qoy gedim, Qənbər, qoy gedim (15).

Göründüyü kimi, aşığın ürfani gücü, sufi ruhu olduqca qüvvətlidir. Təbii ki, bu da onun haqq aşiqliyindən, butalı olmasından irəli gəlir. Mahmud Allahmanlı yazır: "İki məqamda insanın reallıqla ilahilik arasındakı böyük və şərəfli yolu getmək yükü dayanır. Bu yükün isə daşıyıcıları daha çox haqq aşıqlarıdır" (6,s.43). Aşıq Xaspoladın gəraylıları ("Baxın", "Gəlib", "Məni", "Tapdı", "Gözəl", "Mən", "Deyirəm" və b.) oynaqlığına və təbiiliyinə görə adamın könlünə yatır. Bu şeirlərin ana xəttini məhəbbət motivi təşkil edir. Aşıq "bal dodağı, qaymaq buxağı", "yanağı şölə verən", "bəzəkli ceyran"ın onun sinəsinə xal salıb, dəli-divanə etdiyini yazır:

Qaymaq tutub bal dodağı,
Şölə verir gül yanağı.
Sinəmə çəkibdi dağı,
İnsaf edin yana baxın (3,s.90).

Digər bir gəraylısında aşıq məşuqəsindən onu "xumar gözə", "gül yanağa", "qoşa turunc nara" mehman etməsi təmənnasındadır, gözəldən onu, aşiqi "dara çəkməsini" xahiş edir. Aşıq deyir:

Can almağa gələn canan,
Mehman eylə bara məni.
Xumar gözə, gül yanağa,
Qoşa turunc nara məni.

Şəkər ləblərinin dadı,
Nəyə oxşar dedim adı.
Beçə balı ağzım dadı
Gör gətirdin hara məni. (3,s.91).

M.Hüseynli yazır: " XX əsrdə aşıq sənəti sazın, sözün şöhrətini zirvələrə qaldıran bir çox el şairlərinin və aşıqların yetişməsində müsbət zəmin yaratmışdır" (11,s.32). Təbii ki Aşıq Xaspolad da belə qüdrətli el sənətkarlarındandır.

Aşıq Xaspolad "Məni" gəraylısında sevgilisinin şəkər ləblərini beçə balı ilə müqayisə etməklə maraqlı və yaddaqalan bir bənzətmə yaratmışdır. O, "Tapdım" gəraylısında özgələri bəyənmədiyindən yar axtarışına çıxdığını, şəhər-şəhər gəzdiyini, qəvvas olub çaylara daldığını, ovçu olub ox-yay götürdüyünü yazır. Nəhayət, bütün bu əzab-əziyyətin müqabilində sevgilisinə qovuşmuş aşiqin könlü şad olur. Müəllif yazır:

Xaspoladam, çatdım kama,
Coş, ey könül, gəl ilhama.
Əhsən denən bu dövrana,
Axtardığım varı tapdım (3,s.31).

Gördüyünüz kimi, Aşıq Xaspolad aşıq şerinin şəkillərinə yaxşı bələd olduğundan adlı-sanlı el sənətkarı kimi el-oba arasında hörmət qazanmışdır.

Aşıq sevgilisinin qulluğunda durmağı böyük xoşbəxtlik sayır, çünki sevdiyi gözəl "mətləb qanan" xanımdır. Özü kimi, məhəbbəti də safdır, təmizdir, təbiidir. Axı təbiət ona bu gözəlliyi, əzəməti verəndə səxavətini əsirgəməyib. Həm də onun məhəbbəti həqiqi məhəbbətdir. Aşıq yazır:

Var olsun bu təbiəti,
Sənə verib hər zinəti.
Həqiqi bir məhəbbəti,
Yada salıb anan gözəl. (3,s.92).

Gördüyümüz kimi, bu gəraylı oynaq və axıcı, həm də musiqilidir. Professor Sədnik Paşa Pirsultanlı yazmışdır: "Aşıq şeri musiqili olduğu üçün tez əzbərlənir və müəyyən bir musiqi motıvinə bağlılıq onu yaddaşda möhkəmləndirib saxlayır. Aşıq şerinin zehnlərdə, şüurlarda, ürəklərdə uzun illər yaşamasının başlıca səbəblərindən biri budur" (13,s.80 ).

## ƏDƏBİYYAT:


1. Abbaslı T. Qurbaninin poetik irsi. Bakı, «Təhsil», 2004.
2. Aşıq Xaspolad.Taleh və Həqiqət. Bakı, «Yazıçı», 1990.
3. Aşıq Xaspolad Coşğun. Qəlbimdə niskilli hekayətim var. Bakı, «Təhsil», 1999
4. Aşıq Umbay. Laçında çalınan saz. Bakı, 1992.
5. Alıyev O. Laçınım-sevincim, kədərim mənim. Bakı, «Ozan», 2000.
6. Allahmanlı M. Ağlın və yaddaşın dedikləri. Bakı, 2000.
7. Cəfakeş A. Yolçu, hara gedirsən? Bakı, «Şirvannəşr», 2004.
8. Cəfakeş A. Bir ağı de, ay ana. Bakı, «Şirvannəşr», 2000.
9. Çingiz Laçınlı. Laçın həsrəti. Bakı, «Adiloğlu», 2001.
10. Hacıyev A. Ədəbiyyatşünaslığın əsasları. Bakı, «Zaman», 1989.
11. Hüseynli M. Ustadsız aşığın anılmaz adı. «Mədəni maarifçilik» jurnalı, Bakı, 1992
12. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II hissə. Bakı, "Elm" 2006.
13. Paşayev S. Azərbaycan folkloru və aşıq yaradıcılığı. Bakı. 1989.
14. Söyləyəni: Aşıq Həmid Misgin. 78 yaşlı Ağdam rayonu, Şotlanlı kəndi
15. Söyləyəni: Aşıq Xosrov. 70 yaşlı, Ağdam rayonu, Qalayçılar kəndi.
16. Tərtərli Zülfüqar. Dərdlərə xaqan özüməm. Bakı, «Adiloğlu», 2002.



**А.В.Набиева**

**Бакинский Государственный Университет**


**Любовная лирика представителей карабахской ашигской среды**


**РЕЗЮМЕ**

В статье исследуется творчество народных творцов карабахской ашигской среды. Здесь наряду с поэтической традицией, прослеживаются

новаторство, своеобразные оригинальные черты, присущие любовной лирике каждого ашига. Также изучаются особенности формы и содержания, художественная ценность их стихов.

**A.V.Nabiyeva**
**Baku State University**

**The loving lyric poetry of representatives of Karabakh's ashug's habitat.**
**SUMMARY**

The creativity of folk author of Karabakh ashug's habitat is researched in the article. There equally poetry tradition tracks the innovation, original lines of loving lyric poetry of each ashug. Also studied peculiarities of form and content, artistic importance of they poems.